UOT 339.5

*Səmirə Şəmsəddin qızı QULİYEVA*
*Azərbaycan Dövlət İqtisad Universiteti, dissertant*
*E-mail: samire.quliyeva.85@inbox.ru*

# XARİCİ TİCARƏTƏ MÜASİR PARADİQMAL BAXIŞLAR VƏ AZƏRBAYCAN GERÇƏKLİYİ

*Xülasə*

**Tədqiqatın məqsədi: -** geoiqtisadi paradiqma fonunda xarici ticarəti tədqiq etmək, Azərbaycanda xarici ticarətin fəaliyyət istiqamətlərinin araşdırılmasıdır.

**Tədqiqatın metodologiyası: -** tədqiqatda müqayisəli təhlil, ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti: -** tədqiqat göstərir ki, ölkənin inkişaf strategiyasının mərkəzi hədəfinin - xarici ticarət uduşunun faydanın maksimumlaşdırılmasına doğru dəyişməsi baş verməkdədir. Geoiqtisadi yanaşmanın Azərbaycan iqtisadiyyatına potensial təsir imkanları araşdırılmalıdır.

**Tədqiqatın nəticələri:** – aparılan tədqiqatda davamlı və dayanıqlı inkişaf nəticəsində ölkənin ixrac potensialının artırılmasına nail olunması hədəflənmişdir. Alınan nəticələr paradiqmal yeniləşmə potensialının ümumkonseptual sərhədlərini müəyyənləşdirmək imkanı verir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi: -** Xarici iqtisadi inkişaf strategiyasnın formalaşmasında xarici ticarət uduşunun yüksəldilməsi və faydanın maksimumlaşdırılması hədəflənmişdir. Geoiqtisadi paradiqmanın tətbiqi nəticəsində dünya gəlirinin formalaşdırılması və bölgüsündə iştirak başlıca məqsədə çevrilmişdir ki, bu da tədqiqatın əsas gözlənilən nəticəsidir.

***Açar sözlər: geoiqtisadi paradiqma, geostrategiya, ixrac potensialı, neoklassik paradiqma.***

## *Giriş*

Qlobal iqtisadiyyatda baş verən keyfiyyət prosesinin yeniləşməsi dünya ticarətinə ənənəvi yanaşmanın “köhnəldiyini” ortalığa qoydu. Ölkələrarası münasibətlərdə yeni hədəflər müəyyənləşməyə başladı.

Milli miqyasda ölkə mənafeyinə uyğun strateji istiqamətlər tətbiq edilməyə, fərqli nəzəri konstruksiyaların tərtibinə keçid hal-hazırda kütləvi xarakter almaqdadır.

Hesab edirik ki, mövcud vəziyyəti əks etdirmək üçün xarici ticarətə müasir paradiqmal baxışların təhlilinin aparılması məqsədəuyğundur. Əsas məqsədlər, onların metodiki istiqamətlərinin detallı şəkildə araşdırılması müasir dövrdə xarici ticarətin idarəedilməsi strukturunu müəyyən etməyə imkan verir. Belə ki, Azərbaycanın xarici ticarət əlaqələrinin inkişafı ölkənin milli, regional və qlobal sferada seçdiyi milli inkişaf strategiyasından düz mütənasib asılılıqdadır.

**Paradiqmal baxışların yeniləşmə istiqaməti**

Bazar mexanizminin tənzimlənməsi, istehsalın təşkili və idarəedilməsi, iqtisadiyyatın strukturunun təkmilləşməsində xarici iqtisadi fəaliyyət təməl rolunu oynayır. Xarici ticarət, investisiya, maliyyə-kredit, məhsul, xidmət, informasiya, intellektual fəaliyyətin nəticələrinin ölkələrarası mübadiləsi xarici iqtisadi fəaliyyətin əsas istiqamətləridir. Bu baxımdan dünya ölkələri hərtərəfli iqtisadi əlaqələrin inkişafı üçün milli spesifikadan çıxış etməklə xarici iqtisadi inkişaf strategiyası formalaşdırırlar. İndustrial təsərrüfat tipi çərçivəsində sözügedən strategiyanın formalaşmasında əsas məqsəd xarici ticarət uduşuna nail olunması və xarici ticarət uduşunun yüksəldilməsi problemidir. Təsərrüfat tipinin dəyişməsi, yeni keyfiyyət səviyyəsinə çıxış, bir sözlə postindustrial təsərrüfatın formalaşması ilkin olaraq yuxarıda bəhs etdiyimiz inkişaf strategiyasının əsas hədəfini – xarici ticarət uduşunu – faydanın maksimumlaşdırılması ilə əvəz etmişdir. Geoiqtisadi paradiqmanın tətbiqi nəticəsində hədəf daha konkret məzmun kəsb etmiş, dünya gəlirinin formalaşdırılması və bölgüsündə iştirak başlıca məqsədə çevrilmişdir.

Ümumiyyətlə, xarici ticarət sferasında fəaliyyətin təşkili, tənzimlənməsi, effektivlik problemləri, eləcə də xarici ticarət uduşunun yüksəldilməsi və dayanıqlılığına nail olma poblemlərinə yanaşmada iki paradiqmal konstruktsiyanın müqayisəsi gerçəkliyin konseptual ümumiləşdirilməsində əhəmiyyətli rol oynamaq iqtidarındadır. Paradiqmal yanaşma sistemli baxışların formalaşdırılması nöqteyi-nəzərindən də məqsədəuyğun hesab edilə bilər:

1. Geoiqtisadi paradiqma;
2. Neoklassik paradiqma.

Regional inteqrasiya bloklarının yaradılması, iqtisadi regionlaşma, ölkələrarası qloballaşma prosesinin dərinləşməsi, ölkələrin gücünü artırması üçün daha çox iqtisadi vasitə əldə etməsi zərurəti, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında iqtisadi təzadların artması dünya gəlirinə çıxışı və dünya gəlirini yenidən bölüşdürmə siyasətini labüd edir. Gəlirin böyük hissəsi texnoloji və iqtisadi cəhətdən inkişaf etmiş ölkələr tərəfindən əldə olunur. Geoiqtisadiyyat dövlətin qlobal və regional gücə iqtisadi cəhətdən nail olunmasına şərait yaradır. Geoiqtisadiyyat texnologiyanın, bəşəri sərmayənin, yeni təbii qaynaqların regional və qlobal miqyasda siyasi quruluşlar tərəfindən daha çox fayda əldə olunması üçün necə birlikdəliyə nail olunacağını araşdırır. Beynəlxalq ticarət əlaqələrinin və maliyyə bazarlarının dərininə inteqrasiyası geoiqtisadi vasitələri daha da gücləndirmişdir. Geoiqtisadiyyat geosiyasət, beynəlxalq iqtisadiyyat və strategiyanın kombinasiyası kimi fəaliyyət göstərir. Beləliklə, xarici iqtisadi əlaqələr bu istiqamətdə əsas rola malikdir. Geoiqtisadi faktorun əsas mühüm tərəfi beynəlxalq bazarın, qlobal mühitin və haqsız xarici rəqabətin mənfi təsirlərindən qorunmaqla qlobal istehsalçı güclər sisteminə təsirli inteqrasiyadır.

Geoiqtisadiyyatı tədqiq edənlərin bir qrupu hesab edir ki, (E. Lutvak, U. Nester, J. Attali) geoiqtisadi güc mərkəzlərinin yaranması geosiyasəti arxa plana keçirəcəkdir. Edvard Luttvak geoiqtisadiyyatı coğrafi mövqenin ticarət sferasında təcəssümü və dövlətlərarası rəqabət kimi dəyərləndirirdi [1,2,3]. Liberal dəyərlərin təməl rolunu oynadığı müasir dövrdə geoiqtisadiyyat geostrategiyanın mühüm perspektivi kimi özünü göstərməkdədir. Ticarət və strategiya arasında bağlılıq daha da dərinləşməkdədir. E.Lütvak yazırdı ki, "mükəlləflərin ödədiyi vergilərlə maliyyələşən dövlət dəstəkləri gələcəyin sənaye bölgələrinin fəthidir".

Amerikan məktəbinin nünayəndələrindən olan A. Leyson geoiqtisadi nəzəriyyənin 3 mühüm tərəfini qeyd edirdi. 1. İqtisadi neoliberalizmin zəfəri çərçivəsində dövlətin rolunun önəmi; 2. Geosiyasi mənafelərin gücünü itirdiyi ölkələrarası münasibətlərin " ümumi satışı ". 3. Beynəlxalq sərhədlər daxilində "iqtisadi dünyanın" varlığı.

V.Nester tarixi analizə əsaslanaraq geoiqtisadiyyatın beynəlxalq münasibətlərdəki prioritetliyini əsaslandırırdı [3]. Elmin bu istiqamətdə inkişafında böyük əhəmiyyətə malik konseptual yeniliklər irəli sürürdü: Geoiqtisadi qarşıdurma, geoiqtisadi müttəfiqlik, geoiqtisadi güc, iqtisadi qaynaqlar, iqtisadi müvazinət və s.

Fransız geoiqtisadi məktəbinin nümayəndəsi J. Attali "Üfüq cizgiləri" kitabında geoiqtisadiyyat üçün "ölkənin hansı regionda yerləşməsinin, milli, tarixi, mədəni ənənələrin və.s əhəmiyyətli olmadığı"nı qeyd edirdi. Əsas olan dünyaya "vahidlik" mövqeyindən baxışdır [1].

Tədqiqatçıların bir qrupu geoiqtisadiyyatı müasir geosiyasətin ayrılmaz hissəsi kimi görürlər. V. Roqov "Geosiyasətin iqtisadi dili geoiqtisadiyyatdır" deyirdi. V. Tsyumbursk də bənzər düşüncələrə malikdir [4].

V. Pantin və V. Lapkin geoiqtisadiyyat və geosiyasətin sintezinin baş verdiyi qənaətindədirlər [5].

Əlbəttə, şübhə yoxdur ki, təbii, siyasi amillər kompleksinin vəhdəti geoiqtisadiyyatın əsasını təşkil edir.

M.Şepelev, A.Bariskaya və M.Şmeleva geoiqtisadiyyatı geosiyasət, geoekologiya, geomədəniyyəti özündə ehtiva edən geososial elm sistemi keyfiyyətində səciyyələndirirlər [6].

Fikrimizcə, geoiqtisadiyyat geosiyasəti əvəz etmir, yaxud əvəzetmə konkret situasiyanın mahiyyət çalarlarından və hədəfin gerçək məzmunundan asılı olaraq baş verə bilər və baş verir də!

Blakvill və Harris geoiqtisadiyyatı dünyanın mühüm stratejik əhəmiyyət daşıyan məsələlərinin aqibətinə təsir edən, güclü dövlətlərin geosiyasi mübarizədə üstünlük verdiyi bir model olaraq dəyərləndirmişdir [7].

Spark geoiqtisadiyyatı bazar iqtisadiyyatında spontan qaydanın məqsədyönlü formulası hesab edirdi. O, Lüttvaka tənqidi yanaşır, qarşılıqlı asılılığın tərəflərə fayda gətirəcəyini sıfır toplananlı oyun teoreminin ticarət məntiqinə uyğun gəlmədiyini əsaslandırırdı (Sparke 1998; 89-90). İqtisadi böyüməyi mümkün edən coğrafi seçənəklər, dünyəvi, regional birləşmələr, qarşılıqlı əlaqələr, sürətlilik geostrategiyanın əsas məzmununu formalaşdıran amillərdir[8].

İtalyan alimləri Jan Karlo və Paolo Savonanın fikrincə, geoiqtisadiyyat həm ayrılıqda mövcud ola, həm də geosiyasi hədəflərə çatmağa dəstək verə bilər; geoiqtisadiyyatın izlədiyi iqtisadi hədəflər dövlətin hədəflərinə (məs; vətəndaşların rifah halı həm iqtisadi, həm də siyasi hədəfdir) yaxındır. “İqtisadiyyat sadəcə iqtisadi deyil, həm də siyasi məqsəddir” Geoiqtisadiyyat keçmişin hərbi siyasətinin xüsusilə sənayeləşmiş ölkələrdə yer alan iqtisadi siyasətidir. Geoiqtisadi yanaşma hər hansı bir ölkənin məcmu fəaliyyətini (siyasi, iqtisadi, sosial və s.) tək bir strategiyada birləşdirəbilmə iqtidarındadır [9]. İtalyanlar geoiqtisadi yanaşmanı ilk diqqətə alan və təhlil edənlərdən olmuşlar. Geoiqtisadiyyatda dövlət nəzarəti qismən mövcuddur. İqtisadi sistem xarici güclərin pressinqi altındadır. Geoiqtisadi rəqabət klassik rəqabətlə müqayisə olunmur. Bu rəqabətdə uduzan olmur. Əsas mübarizə dünya gəlirinə çıxışın təmin edilməsi aspektində aparılır.

Fikrimizcə, ölkələrarası rəqabət getdikcə regionlararası rəqabətə çevriləcəkdir. Məhz buna görədir ki, bir çox regional təşkilatlar ölkələrarası rəqabətin meydana gətirə biləcəyi qarşıdurmaların neytrallaşdırılmasına cəhd göstərirlər.

Əhməd Davudoğlu “soyuq müharibədən sonra geosiyasət və geoiqtisadiyyatı ən gərgin istiqamətlər kimi dəyərləndirərək, (Davutoğlu: 2001, 24), bir sıra dövlətlərin “ixracyönümlü inkişaf modelləri”ylə dünya iqtisadiyyatına inteqrasiya olunmalarına diqqət çəkmişdir[10].

Səid Əli (1998; 163) geoiqtisadi məqsədin iqtisadi rifahı qoruma və iqtisadi rəqabətə dözümlülük qabiliyyətini əks etdirdiyini hesab edirdi. Bu müdafiə xarakterli geoiqtisadiyyat modelidir. Hücum geoiqtisadiyyatının məqsədi yalnız mənbələrə nəzarət deyil, həmçinin iqtisadi güc tətbiq edərək mümkün olan ən yüksək bazar payını əldə etməkdir [11].

Rus geoiqtisadi məkəbində də fərqli baxışlar ortalığa qoyulmuşdur.

Geoiqtisadiyyat geosiyasətin alternativ variantıdır. E. Koçetov geoiqtisadiyyatı iqtisadi sistemlər vasitəsilə qlobal dünyanı əks etdirən yanaşma, ölkənin xaricinə çıxarılan və iqtisadi mühitin xarici vəziyyətini müəyyən edən iqtisadi münasibətlər sistemi kimi təsvir edir [12]. O, geoiqtisadiyyatı özəl sektor və dövlət qurumlarının ortaq fəaliyyəti kimi xarakterizə edirdi.

A.Neklessa geoiqtisadiyyatı “qloballaşma” çərçivəsində iqtisadi fəaliyyət növlərinin coğrafiliyi, beynəlxalq əmək bölgüsünün yeni düsturu, beynəlxalq münasibətlərdə siyasət və iqtisadiyyatın birləşməsi, qlobal sistemin yaradılması sistemi kimi izah etmişdir [13]. Ona görə də modern dünya əmək bölgüsü, iqtisadi modernləşdirmə və dünyanın iqtisadi makro quruluşlara bölünməsinə imkan yaradır.

Fikrimizcə, geoiqtisadiyyat ölkələrin coğrafi yerləşməsi və iqtisadiyyatı arasında əlaqə yaradan, ölkələrarası münasibətlərin dərinləşməsini şərtləndirən, son məqamda siyasi və iqtisadi aspekti birləşdirən bir məfhumdur. Qoballaşma prosesləri dərinləşdikcə əmək bölgüsü, modernləşmənin tətbiqinə şərait yaranır. Bu baxımdan qeyd edək ki, dünya əmək bölgüsü Azərbaycanın da xarici ticarət fəaliyyətinə təsir edib. Odur ki, zənnimizcə, ölkəmizin xarici ticarət potensialına bu aspektdən baxış məqsədəuyğun olardı.

**Azərbaycan ixrac potensialının əsas komponentləri**

Ölkəmizdə ixrac potensialının inkişafında əsas məqsəd milli iqtisadiyyatın davamlı inkişafını təmin etmək və makroiqtisadi sabitliyi qorumaqdır. Digər tərəfdən, ixrac potensialının artırılması, ondan milli iqtisadiyyatın inkişafı üçün səmərəli istifadə edilməsi üçün əsas şərtlər makroiqtisadi sabitlik və uzunmüddətli inkişafla bağlıdır. Odur ki, ixrac potensialının tənzimlənməsindən danışarkən makroiqtisadi inkişaf göstəricilərinin öyrənilməsi, milli iqtisadiyyatda müşahidə olunan

tendensiyaların araşdırılması zəruridir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dünya ölkələri ilə sərbəst idxal-ixrac əməliyyatları aparır və ölkənin bu sahədə əlaqələri genişlənir. Bu mənada deyə bilərik ki, beynəlxalq ticarət bir tərəfdən beynəlxalq əmək bölgüsünü müəyyən edir, digər tərəfdən isə iştirakçı ölkənin daxili iqtisadiyyatının səmərəliliyini artırır.

Qeyd edək ki, milli iqtisadiyyatda inkişaf proseslərinin sürətlənməsi iqtisadiyyatın sahələrinin ixrac potensialından istifadə imkanlarını artırıb. Amma bununla yanaşı, bir sıra strateji sənaye sahələrinin ixrac potensialının tənzimlənməsinə ehtiyac yaranıb. İxrac potensialından səmərəli istifadənin göstəricilərindən biri də ölkənin ixracının artım səviyyəsi və sənayenin mövcud ixrac potensialına uyğunluğudur. Ölkədə makroiqtisadi sabitlikdən və artan maliyyə resurslarından səmərəli istifadə etməklə ixrac potensialını səmərəli şəkildə reallaşdırmaq mümkündür. Onun tənzimlənməsinin əsas aləti olan ixrac potensialından rasional istifadəyə əhəmiyyətli dərəcədə təsir edən digər amil - gömrük sistemi və onun inkişaf etdirilməsidir. Gömrük sisteminin mövcud vəziyyəti, tariflərin tənzimlənməsi həm də xarici ticarətin liberallaşdırılmasının səviyyəsini xarakterizə edir. Qeyd edək ki, ölkənin ixrac imkanlarının genişləndirilməsi problemi ilə yanaşı, ölkənin idxal siyasətinə də diqqət yetirmək lazımdır. Çünki idxalı əvəzləmə strategiyası ölkənin ixrac potensialının inkişafında mühüm rol oynayır. İxrac yönümlü modelin işlənib hazırlandığı bazar iqtisadiyyatına malik ölkələrdə sənaye və kənd təsərrüfatının mövcud və potensial imkanlarından maksimum istifadə etməklə milli sənayenin və kənd təsərrüfatının aparıcı sahələrini idxalın mənfi təsirindən qorumaq mümkündür. Təşəkkül dövründə əsas strategiyanın olmasına baxmayaraq, ixrac potensialının daha da gücləndirilmiş inkişafına təsir göstərmək, milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq və gələcəkdə onun dünya bazarlarına çıxış imkanlarını əldə etmək üçün idxalı əvəzləmə strategiyasından istifadə etmək lazımdır.

Azərbaycan Respublikası Prezidentinin “Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası”nın təsdiq edilməsi haqqında” sərəncamı ilə [14] rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, keyfiyyətinin yüksəldilməsinə, daxili və xarici bazarlarda davamlı yerli məhsulların rəqibinin çeşidinin artırılmasına böyük töhfə verdiyini də qeyd etmək lazımdır.

Azərbaycanın son on ildə xarici ticarətində baş verən dəyişiklik meyilləri idxal və ixrac əməliyyatları üzrə fərqliliyi ilə müşahidə olunmuşdur. Belə ki, idxal əməliyyatları 2016-cu illə müqayisədə 2020-ci ildə 30.6% artaraq 4,7 milyard ABŞ dolları səviyyəsinə çatdığı halda, ixrac əməliyyatları isə demək olar ki sabit səviyyədə qalmışdır və yalnız cüzi, yəni 0,5% aşağı enmişdir və 24,3 milyard ABŞ dolları təşkil etmişdir (bax Qrafik 1-ə.) [15,16]. İxrac əməliyyatlarında baş verən enmə meyilləri 2015-ci ildən başlanmış və bu prosesdə dünya bazarlarında neftin qiymətinin ucuzlaşması və ixracının müəyyən qədər azalması da öz təsirlərini göstərmişdir. Digər tərəfdən, idxal əməlyyatlarının artmasında ölkə üçün ənənəvi olan bir çox məhsulların payının artması da müsbət qiymətləndirilə bilməz.

Ölkənin xarici ticarətinin coğrafi quruluşu idxal və ixrac əməliyyatları baxımından fərqliliyi və bu fərqlilikdə malik olduğu paya görə öz müxtəlifliliyi ilə nəzərə çarpır. İxrac əməlyyatlarının həcmi baxımından əsas ölkələr kimi Avropa və Asiya dövlətləri yüksək paya malikdir. Belə ki, 2016-cı ildə ixrac əməliyyatlarında Avropa dövlətlərinin payı - 61,0%, Asiya dövlətlərinin - 35,8%, Amerika dövlətlərinin (əsasən də Şimali Amerika) - 1,4%, Afrika dövlətlərinin - 1,8%, Okeaniya dövlətlərinin -0 % təşkil etmişdir. 2020-ci ildə bu göstəricilər Avropa dövlətləri üzrə 0,9% azalmaqla 60,1%, Asiya dövlətləri üzrə 4,9% azalmaqla 42,4% səviyyəsinə endiyi halda, Amerika dövlətləri üzrə 0,1% azalmaqla 8,3%, Afrika dövlətləri üzrə isə 0,6% artmaqla 2,4% səviyyəsinə yüksəlmişdir [15,16].

**Qrafik 1.**

**Xarici ticarət dövriyyəsində əsas məhsulların ixrac və idxalının dinamikası (milyard ABŞ dolları)**




**Neoklassik paradiqmaya sistemli yanaşma**

Neoklassika 1870-ci illərdə meydana gəlmişdir (U.S.Cevons, L.Valras, B.Klark, İ.Fişer, A.Piqu). Neoklassik yanaşma gəlirin yüksəldilməsi və xərclərin azaldılmasını qarşıya məqsəd qoyan “iqtisadi insan”ın fəaliyyətinə istinad edir. Neoklassik istiqamətin tərəfdarları ümumi bərabərlik nəzəriyyəsinə əsaslanır, hansı ki, sərbəst rəqabət mexanizmi və bazarda qiymətəmələgəlmə, haqlı gəlir və mövcud iqtisadi resurslardan istifadə imkanı yaradır. Bazarın vəziyyəti haqda olan informasiyalar qiymətdə cəmlənmişdir. Bu informasiyaya malik olan hər bir subyekt mübadilə prosesində iştirak edə bilər. Neoklassik paradiqma mükəmməl rəqabət sferasında bazar sahibkarlığı təsərrüfatının istiqamətlənməsinə yönəlmişdir. Həmçinin buraya rasional gözləmələr nəzəriyyəsi və başqalarını da aid etmək olar.

Klassiklər sənaye kapitalizminin əvvəllərində yaşamışlar. İstehsalla birgə cəmiyyətin iqtisadi quruluşunu da araşdırırdılar. Mübadilə və bazar tənzimləmə ilə bağlı məsələləri də bu prizmadan izah edirdilər. Bu dövrdə sənayeləşmə prosesi sosial problemlər, uzun iş saatları, insan orqanizminə mənfi təsir edən iş şəraiti dövlətin iqtisadiyyata daha çox müdaxiləsinə təkan verirdi. Neoklassik paradiqma klassik siyasi iqtisadın və marjinalizmin təməl müddəalarının sintezini özündə ehtiva edir.

Neoklassik paradiqma “indiki” zamanla ( gələcəklə deyil ) işləyən paradiqmadır. - Rasional insanlar “azad və bərabərdirlər”, ceteris paribus-hər hansı bir iqtisadi prosesin təhlili bir amilin dəyişdiyinə, digərlərinin isə sabit qaldığına əsaslanır, bazar tam şəkildə rəqabət bazarıdır- fərdlərin sosiallaşmasına şərait yaradan bazar onların toplu halda olmağa meyilliyindən əmələ gəlmişdir.

Neoklassik yanaşma riyazi modellərə əsaslanır, hansı ki, klassiklərdən fərqli olaraq retrospeksiyadan istifadə etmir və gələcəkdə inkişafın hansı istiqamətdə gedəcəyinə “etinasız” münasibət bəsləyir. Neoklassika- çoxlu sayda və müxtəlif yönümlü tədqiqatların predmeti kimi bu gün də çıxış etməkdədir.

Leyxonxuffud yazır ki, “əvəz etmək üçün alternativlər axtarmaq yerinə, həmin sərhədlərin daxilində özümüz üçün iqtisadi nəzəriyyə təsəvvür etməliyik”. Burada, aydın olduğu kimi eksperimental iqtisadiyyatdan söhbət gedir [17].

Robert Lukas neoklassik paradiqma çərçivəsində biznes-tsikli üzərində aparılan araşdırma zamanı makroiqtisadi proseslərə mikroiqtisadi mövqedən yanaşmışdı [18]

Oskar Lange bazar sosializmi modelində yazırdı, hərracın funksiyasını ən yaxşı halda planlı orqanlar, mərkəzləşmiş plan təşkilatları yerinə yetirir. O, planlı orqanların mövcudluğunu neoklassik bazar modelinin fəaliyyətilə əlaqələndirirdi [19] və s.

Sözügedən paradiqmada əsas ana xətt tədavül prosesi, bazarın strukturu, xarici ticarətin real sektora istiqamətlənməsidir. Neoklassik paradiqma baxımından məcmu fəaliyyətin (xarici ticarətdə) ağırlıq mərkəzinin müqayisəli üstünlüklər prinsipinin üzərinə düşməsidir. İqtisadi artıma nail olmaq üçün ölkə iqtisadi siyasəti beynəlxalq ticarətə yönəltməlidir. Lakin paradiqma beynəlxalq ticarətdə dövlətin artan rolunu nəzərə almır. Müqayisəli üstünlüklər baxımından inkişaf etməkdə olan ölkələrdə məhsul ixracını təmin edən resurslar əksəriyyətən firmalara məxsusdur. Məhz buna görə İEOÖ-nün iqtisadiyyatının ixrac bölməsinin başqa sahələrlə əlaqəsi önəmlidir. Dünya iqtisadiyyatı daim dəyişir. İnkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında "uçurum" dərinləşir. Resurslardan istifadə, beynəlxalq əmək bölgüsü, kapital qoyuluşu və s. sferalarda assimmetriya daha geniş xarakter alır. Buna görə də, bir sıra tədqiqatçılar yazır ki, müqayisəli üstünlüklər nəzəriyyəsini "üçüncü dünya ölkələri" nə tətbiq etmək olmaz. Əmtəələrin qiymətləri subyektin səmərəni maksimumlaşdırma davranışının nəticəsidir. Əsas ideya isə tarazlıq vəziyyətində mövcud olan iqtisadiyyatın mükəmməl rəqabəti ideyasıdır. Paradiqma mikroiqtisadi səviyyəyə əsaslanır. Xarici ticarət nə qədər yüksək olarsa, real sektorda gəlir də bir o qədər yüksək olur. Burada əsas məqsəd- real sektorda tələbə uyğun məhsul istehsalıdır.

Burada fərqli tərəf, müxtəlif ölkələrdə resursların müxtəlif qiymətə malik olmasıdır. İşçi qüvvəsi bol olan ölkələr, qüvvəsi ucuz olan ölkələr əməktutumlu, kapitalı bol olan ölkələr isə kapitaltutumlu istiqamətdə üstünlüyə malikdir. Beynəlxalq ticarətin həcmi artdıqda ticarətə qoşulan ölkələrin gəliri artır, azaldıqda isə aşağı düşür. Bu istehsal amillərinin qiymətinin tarazlığını təmin edir. Beynəlxalq ixtisaslaşma zamanı qənaət olunan istehsal amillərinin artması tələbi yüksəldir.

Ümumiyyətlə, neoklassika "meynstrim" olsa da, kütləvi şəkildə elmi tənqidə məruz qalmaqdadır. Təbii ki, bizim məqsədimiz sözügedən nəzəriyyənin tənqidi yaxud təltifi deyildir. Sadəcə olaraq, həmin nəzəriyyəyə söykənən neoklassik paradiqmanın –müasir qlobal reallıqda – istifadə imkanları yaxud istifadənin davam etdirilməsi potensiyası sürətlə tükənməkdədir. Dünya iqtisadiyyatının rəqəmsal transformasiyaya uğradığı bir dövrdə müqayisəli üstünlüklər prinsipinin nə nəzəri, nə də praqmatik əhəmiyyəti qalmır. Lakin industrial təsərrüfatın mövcud olduğu ölkələrdə (o cümlədən Azərbaycanda ) xarici iqtisadi inkişaf strategiyası həmin prinsipin üzərində qalmaqda davam edir. Qəti şəkildə əminik ki, çağdaş dünyada xarici ticarətin müqayisəli üstünlüklər bazasında effektiv gedişi prinsipcə mümkün deyildir. Buna görə də seçim birmənalıdır: geoiqtisadi inkişaf paradiqması!

## *Nəticə*

Dünya iqtisadiyyatı və eləcə də ölkədə meydana gələn dəyişikliklərin ölkələrarası qarşılıqlı əlaqələrin yeni hədəflərindən qaynaqlanaraq baş verdiyini müəyyən etdik. Müasir mərhələdə dünya gəlirinin formalaşdırılması və bölgüsündə iştirak başlıca məqsədə çevrilmişdir. O cümlədən, Azərbaycan iqtisadiyyatı son onillikdə daha böyük sürətlə inkişaf etmiş, regionda gedən proseslərdə öz mövqeyini müsbət tendensiya ilə əks etdirmişdir. Dünya iqtisadiyyatında ölkələrarası qüvvələr nisbətinin dəyişməsi, yeni iqtisadi mənbələrin meydana gəlməsinə şərait yaratmış, ölkə inkişafına təkan vermişdir. Zənnimizcə, bu nizam perspektivdə yeni istiqamətlər yarada bilər.

- ölkələrarası asılılığın güclənməsi;
- regionlararası rəqabətin artması;
- milli və dünyəvi strategiyalar arasında uyğunsuzluqların dərinləşməsi;
- davamlı və dayanıqlı inkişafa nail olunması;
- inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında iqtisadi ziddiyyətlərin artması.

## ƏDƏBİYYAT

1. Attali J. "Lignes d'horizon (Essais) (2004), Paris, Livre de Poch p.p.122 Lekey, R The Makinq of Mankind. N.Y. 1981.

2. Luttwak Edward N., The Endangered American Dream: How to Stop the United States from Becoming a Third World Country and How to Win the Geo-Economic Struggle for Industrial Supremacy, New York, 1993.
3. Nester, William. The First Global War: Britain, France, and the Fate of North America, 1756-1775. Front Cover. William R. Nester. Praeger, 2000 - History - 308 p.p.
4. Рогов. В.”Основы формирования геоэкономических регионов свроменной России”. Иркутск 2002. стр.102
5. Лапкин В.В., Пантин В.И. Геоэкономическая политика и глобальная политическая история. - М.: Олита, 2004. - С. 45, 53~54.
6. Шепелев М.А., Бариская А.Т., Шмелева М.И. Цивилизационное измерение геоэкономики // Полис. - 2001. - № 3. - С. 171.
7. Блэквилл, Роберт Д., Харрис, Дженнифер М. Война другими средствами: геоэкономика и управление государством. Издательство Гарвардского университета. Кембридж.
8. Sparke, Matthew(1998). "From Geopolitics to Geoeconomics: Transnational State Effects in the Borderland"’, Geopolitics, S. 3(2), ss. 62
9. Кочетов Э. Г. Геоэкономика (Освоение мирового экономического пространства). - М.: Издательство БЕК, 1999- 102 с.
10. Ахмед Давутоглы “Особенности внешнеполитического процесса” Истанбул.2001
11. Said Ali, Abdul Monem (1999). ‘From Geopolitics to Geoeconomics’ in Phebe Marr (ed.)
12. Черная И. П. Геоэкономика: Учебное пособие / И.П.Черная. - М.: Издательско-торговая корпорация «Дашков и К°», - 248 с.
13. Неклесса А.И. Война и постсовременность. – Экономические стратегии. 2016, № 5. С. 112-118.
14. https://president.az/articles/26718
15. https://www.stat.gov.az/source/trade/az/f_trade/xt009_1.xls
16. https://www.stat.gov.az/source/trade/az/f_trade/xt009_2.xls
17. Axel Leijonhujvud. The Trento Summer School // Routledge Advances in Experimental and Computable Economics. — Routledge, 2004-03-12.
18. Lucas, Robert (1972). "Expectations and the Neutrality of Money". Journal of Economic Theory. Cilt 4.
19. Ланге, О. (1936). «Об экономической теории социализма I». Обзор экономических исследований.

***Самира Шамсаддин кызы Кулиева***
***Азербайджанский Государственный***
***Экономический Университет, диссертант***
***E-mail: samire.quliyeva.85@inbox.ru***

## Современные парадигмальные взгляды на внешнюю торговлю и реальность Азербайджана

***Резюме***

**Цель исследования** - изучение внешней торговли на фоне геоэкономической парадигмы, изучение направлений деятельности внешней торговли в Азербайджане.

**Методика исследования** - в исследовании использованы методы сравнительного анализа, методы обобщения.

**Прикладная значимость исследования** - Исследование показывает, что происходит изменение центральной цели стратегии развития страны - максимизации выгоды от внешнеторгового выигрыша. Необходимо изучить потенциальные возможности влияния геоэкономического подхода на экономику Азербайджана.

**Результаты исследования** - в результате непрерывного и устойчивого развития была достигнута цель повышения экспортного потенциала страны. Полученные результаты дают возможность определить общепризнанные границы потенциала парадигмальных инноваций.

**Оригинальность и научная новизна исследования** - при формировании стратегии внешнеэкономического развития оно направлено на повышение внешнеторгового выигрыша и максимизацию прибыли. В результате применения геоэкономической парадигмы главной целью стало участие в формировании и распределении мирового дохода, что является главным ожидаемым результатом исследования.

***Ключевые слова: геоэкономическая парадигма, геостратегия, экспортный потенциал, неоклассическая парадигма.***

***Samira Shamsaddin Guliyeva***
***Azerbaijan State University of Economics, respondent***
***E-mail: samire.quliyeva.85@inbox.ru***

### Modern paradigmatic views on foreign trade and the reality of Azerbaijan

***Summary***

**The purpose of the study** is to study foreign trade against the background of the geo-economic paradigm, to study the activities of foreign trade in Azerbaijan.

**The study methodology**-the study uses methods of comparative analysis, methods of generalization.

**Applied significance of the study**-The study shows that there is a change in the central goal of the country's development strategy - maximizing the benefits of foreign trade gains. It is necessary to study the potential impact of the geo-economic approach on the economy of Azerbaijan.

**The study results** - As a result of continuous and sustainable development, the goal of increasing the export potential of the country was achieved. The results obtained make it possible to determine the generally recognized limits of the potential of paradigm innovations.

**Originality and scientific novelty of the study** - upon forming a strategy for foreign economic development, it is aimed at increasing foreign trade gains and maximizing profits. As a result of the application of the geo-economic paradigm, the main goal was to participate in the formation and distribution of world income, which is the main expected result of the study.

***Key words: geo-economic paradigm, geostrategy, export potential, neoclassical paradigm.***